

# Əli tək deyil

## Bu gün Masallı gəncləri Əli İbadov kimi qəhrəmanları özlərinə örnək bilirlər

Deyirlər, şəhidi olmayan xalq vətən məhəbbətindən, yurd sevgisindən məhrumdur. Azadlığı qanı, canı ilə qazanmayan millət hər vaxt kölə kimi gözüqırpıq, həyəcan içində yaşayır.

Vətənpərvərlik hissi, döyüş ruhu cənub bölgəsinin də gəncləri arasında hər zaman yüksək səviyyədə olub. İstər birinici Qarabağ, istərsə də 44 günlük Vətən müharibələrində bizim region da yüzlərlə şəhid verib.

1974-cü ildə Masallının Tüklə kəndində dünyaya göz açmış İbadov Əli İbad oğlu Birinci Qarabağ müharibəsində Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olub. O, 1991-ci ildə kənd orta məktəbini bitirmişdi. Bütün yeniyetmələr kimi Əlinin də arzuları vardı. Lakin ermənilərin Azərbaycana qarşı 1988-ci ildən başlayan əsassız ərazi iddiaları, törətdikləri qanlı cinayətlər Vətənin bütün qeyrətli oğulları kimi, Əlinin də həyatını dəyişdi.

1992-ci ildə hərbi xidmətə yollanan Əli İbadov Daxili Qoşunlarin tərkibində Ağdərədə bir çox kəndlərin azad olunmasında iştirak etdi. Döyüş gedən kəndlərdə yaralanmış igid əsgər hərbi hospitalda müalicəsi bitər-bitməz yenidən ön cəbhəyə yollandı, düşmənin atəş nöqtələrinin məhv edilməsində rəşadət göstərdi.

1993-cü il fevral ayının 4-6-da Ağdərə rayonunun Mehmanə kəndi ətrafında gedən ağır döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə ucalan Əli İbadov igidliyi ilə elə-obaya gərəkli övlad, Vətənə layiqli oğul oldu! Şəhidliyi ilə hər kəsin başını uca edən, canından artıq sevdiyi Vətən uğrunda mərdlik nümunəsi göstərən Əli bununla özünə ölməzlik qazandı. Amma Əli tək deyil. 246-dan çox şəhidi olan, 4 igid oğlu “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına layiq görülən Masallıda hər bir gənc torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda canından, qanından keçməyə hazırdır. İllər keçir, olanlar unudulur. Amma şəhidlər unudulmur. Xalqımız Vətən uğrunda canını qurban verən igid övladlarını həmişə yad edir, qəlblərində yaşadır.

***Aygül SADAYQIZI,***
***Yeni Azərbaycan Partiyasının fəalı***

Azərbaycan.- 2021.- 13 oktyabr.- S.6.